**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.321**

**GÜLTƏKİN QASIMLI***

# CEYHUN ALLAHVERDİYEVİN ARİF MƏLİKOVA HƏSR ETDİYİ FORTEPİANO SONATASI

*Məqal*ədə Respublikanın əməkdar incəsənət xadimi, bəst*əkar, piano*çu, pedaqoq Ceyhun Allahverdiyevin fortepiano üçü*n sonatas*ının üslub xüsusiyyətləri təhlil edilmişdir. Əsər bəstəkarın sevimli müəllimi Arif Məlikova həsr edildiyi üçün burada ö*lməz sənətkarın obrazını əks etdir*ən musiqi ifadə vasitəl*əri (m*əsələn, humayun mə*qamı) il*ə yanaşı, onun əsərlərinin, xü*susil*ə, kamera instrumental musiqisinin üslub xüsusiyyətlərinin təsiri aydın eşidilir. Təhlil prosesində *sonatan*ın klassik normalarını (üç hissəli quruluş*u)saxlamaq* ş*ərti il*ə müasir musiqi dilinin milli musiqi xüsusiyyətləri ilə sintezi müəyyən edilmişdir.

***Açar sözlər:*** *sonata, janr, forma, intonasiya, ekspozisiya, repriza*

## Giriş

Sonata janrının Azərbaycan fortepiano musiqisində intensiv inkişaf mərhələsi XX əsrin ikinci yarısına - fortepiano musiqisi sahəsində əhəmiyyətli keyfiyyət dəyişikliklərinin baş verdiyi dövrə təsadüf edir. Bu zaman Q.Qarayev, C.Hacıyev, F.Əmirov, V.Adıgözəlov, A.Əlizadə, M.Mirzəyev, F.Qarayev, F.Əlizadə kimi görkəmli bəstəkarların yaradıcılığında sonatanın formalaşması Azərbaycan instrumental musiqinin inkişafında əhəmiyyətli rol oynamışdır.

## Əsas məzmun

Lakin əsrin sonlarına doğru sonata janrı Azərbaycan bəstəkarlarının yaradıcılığında yeni əlamətlər qazanmağa başlayır. Bu zaman müasir musiqinin yeni üslub əlamətləri yeni nəsil Azərbaycan bəstəkarlarının sonata janrında yaratdığı əsərlərinə öz təsirini göstərir. Bütün bu prosesləri tədqiq edən professor T.Seyidov öz monoqrafiyasında XX əsrin 70-ci illərindən başlayaraq bəstəkarların yaratdığı sonatalar haqqında yazır: "Sonata janrında sonata təfəkkürünün prinsiplərini nəzərdə tutan konseptual planda böyük fəlsəfi dərinlik əldə olunur. Sonata formasının prossesual yozumunun əsasını təşkil edən xüsusiyyət onun simfonik janrla qarşılıqlı əlaqəsi olmuşdur. Ötən illərin təcrübəsini canına çəkən Azərbaycan fortepiano sonatası milli mədəniyyətin hazırkı inkişafının daha yetkin bir mərhələsində yeni keyfiyyət kəsb edir. Forma sxeminə yiyələnməkdən başlayaraq, janrın mahiyyətinin dərk olunmasına qədər Sonatanın inkişafı daha intensiv və cəld həyata keçirilir" ( 2, s. 264).

Məlumdur ki, Azərbaycan bəstəkarlarının çoxu sonataları konservatoriyada aldığı təhsil illərində "yaradıcılıq eksperimenti" kimi yaratmışlar. Ceyhun Allahverdiyevin də fortepiano sonatası onun Arif Məlikovun sinfində təhsil aldığı zaman, 1993-cü ildə meydana gəlmişdir. Bəstəkar əsərin başlığında "Unudulmaz müəllimim Arif Məlikova həsr edirəm" sözlərini yazmışdır. Arif Məlikova olan özünü dərin hörmətini Ceyhun Allahverdiyev iki məlum əsəri ilə ifadə etmişdir. Bunlardan birincisi fortepiano sonatası, ikincisi isə 2 saylı Simfoniyasıdır (1997).

Əminliklə demək olar ki, sonata bəstəkarın tələbəlik illərinin məhsulu olduğuna görə bilavasitə sevimli müəlliminin estetik baxışlarının təsiri altında yaranmışdır. Əsər üç hissədən ibarətdir:

Birinci hissə - Allegro moderato con espressione
İkinci hissə - Andante (rubato)
Üçüncü hissə - Attacca sub Allegro

Sonatanın strukturu ənənəvi hissələrdən (cəld -asta- cəld) ibarət olsa da, hər hissə özünəməxsus quruluşa malikdir ki, bu da əsərin müasir musiqinin yeni üslub- təmayüllərin təsirindən yarandığını parlaq göstərir. XX əsrin ikinci yarısında Azərbaycan bəstəkarlarının sonata janrında yazdıqları əsərləri xarakterizə edərək tədqiqatçı T.Seyidov qeyd edir: "Nəzərdən keçirilən dövrdə sonata janrının mənimsənilməsi səciyyəvi təmayüllə müşayiət olunmuşdur: bu,

müasir musiqinin müxtəlif üslub istiqamətlərinin mənimsənilməsi cəhdini güclənməsidir. Odur ki, fortepiano sonata və sonatinaları tək obrazına görə deyil, həm də üslub istiqamətinə görə də müxtəlifdir” ( 2, s.264). Bu amil əsrin sonlarında – 90-cı illərdə yaranan sonatalarda xüsusilə, dərinləşir. Bu baxımdan Ceyhun Allahverdiyevin sonatası maraq doğurur.

Bu əsərdə klassik üçhissəli quruluşu ilə müasir musiqi dilinin, o cümlədən, milli musiqi intonasiyalarının müasir musiqi elementləri ilə sintezi özünü göstərir. Sonatada hər bir hissənin janr xüsusiyyəti qorunub saxlansa da (Allegro – Andante – Allegro), burada mühüm rol oynayan ekspressiv motorika, güclü enerjinin üstünlüyü (kənar hissələr), ostinatlıq, ritmik təşkilin müxtəlifliyi əsərin melosunun milli əsasını mürəkkəbləşdirir, ona xüsusi dinamika verir. Sonatanın dramaturji inkişafı təzadlı mövzuların ardıcıllaşması, onların bir-birinə yaxınlaşması və uyğunlaşması prinsipi üzrə qurulmuşdur.Yuxarıda qeyd olunduğu kimi, bu sonatada da simfonik janrla qarşılıqlı əlaqə dərindir. Bunu müəllif sonatanın ifaçılıq xüsusiyyətlərinin şərhini verərkən belə ifadə edir: “ Əsasən Bethoven ənənələrindən gələn janrın simfonikləşdirilməsi sonatada özünü aydın biruzə verir. Bu baxımdan əsərin ifaçı pianoçudan xüsusi texniki hazırlıq və peşəkarlıq tələb edir. Sonata boyu ən müxtəlif passajlardan və registr növbələşməsindən geniş istifadə edilmişdir. Bu nöqteyi- nəzərdən kənar hissələr xüsusilə diqqətəlayiqdir. Fortepianonun imkanları vasitəsilə simfonik obrazların yaradılması bütün əsərin əsas qayəsini təşkil edir” ( 1, s.18).

Həqiqətən, sonatanın ifası pianoçudan, sözün həqiqi mənasında, virtuozluq tələb edir. Bununla belə, əsərin ifasında virtuozluq əsas məqsəd deyil, başlıca vəzifə burada bədii fikrin çatdırılması, xarakterin açılması üçün yüksək texniki hazırlıq tələb olunur. Xüsusilə, burada sol əldə xırda barmaq texnikasının tətbiqi, sol əldə oktol otuzikiliklərin sağ əldə sekstol, septol onaltılıqların eyni vaxtda uzlaşması, oktavalı, akkord passajların istifadəsi (I hissə) buna parlaq misal ola bilər.

Sonata böyük bir girişlə açılır (Allegro moderato con espressione). Əsər Arif Məlikova həsr edildiyi üçün artıq ilk xanələrindən müəlliminin lad-rəmzi olan humayunun “ağır” intonasiyaları eşidilir. Çox parlaq ekspressiv xarakterli, təşəbbüslü girişdə sol əlin partiyasında humayunun intonasiyaları üzərində qurulan və onaltılıqların, sonra isə otuzikiliklərin monoton təkrarlanan fiqurasiyalı motivinin diapazonu getdikcə genişlənərək dinamikanın artmasına təkan verir. Nümunə N1




Belə bir hərəkətverici, impulsiv fonda sağ əlin partiyasında dissonans səslənən, geniş sıçrayışlı və aramlı hərəkətə malik mövzunun çıxış etməsi ilə iki bir-birinə əks olan obrazlı başlanğıcın uzlaşması baş verir. Bütün bu səs kütləsi getdikcə gücləndirilərək hissənin əsas mövzusunun daxil olmasına gətirib çıxarır.

Birinci hissə sonata formasında bəstələnib. Hissənin əsas mövzularının ekspozisiyası çox geniş və inkişaflı xarakter daşıdığına görə işləmə hissəsi epizodla təmsil olunur, repriza isə

yığcam şəkildə təqdim edilir.

Əsas mövzunun (***Energico e passione***) inamlı xarakteri hər iki əlin unison ifasında onaltılıqların təşəbbüslü passajları ilə xüsusilə güclü səslənmə əldə edir. Mövzunun (es-moll) ilk xanəsi olduqca dolğun və ifadəli motivdən ibarətdir. Bu motiv hər dəfə, mövzunun variant təkrarları zamanı çox dəqiq seçilərək ifa olunur. Xüsusilə, burada ladın dayaq pərdəsinin ("mi") motivin əvvəlində və sonunda aksentlə vurğulanması onun konturlarını qabarıq göstərir. Nümunə N 2




Əsas mövzu ekspozisiyada geniş inkişafa məruz qalır. Burada onun üç dəfə variant inkişaflı təkrarında hər dəfə bu başlanğıc motiv dəyişməz saxlanılır. Variant təkrarlar isə əsas tematik özəyin intonasiya-işləmə xarakterli inkişafına əsaslanır: ilkin variantda (a) unison ifa punktir ritmli akkordlarla ardıcıllaşaraq xalq ifaçılığından gələn priyomu imitasiya edir. Burada həm də Azərbaycan fortepiano mədəniyyətində özünəməxsus istiqamət olan "xalq pianizmi" üslubunun təsiri də aydın müşahidə olunur.

İkinci variant təkrarda ($a^1$) kvarta-kvinta (əskildilmiş) tərkibli akkordların daxil edilməsi dramatizmi daha da dərinləşdirərək emosional gərginliyin artmasına xidmət edir. Bu, üçüncü variant təkrarda ($a^2$) daha kəskin səslənməyə malik olan yuxarı və aşağı istiqamətli dissonans intervalların göstərilməsi əsasında qurulan unison ifanın dinamikasını gücləndirərək yeni və təzadlı obraz sferasının - köməkçi mövzunun yaranmasına gətirib çıxarır.

Köməkçi mövzu (a-moll, yaxud "lya"-şur) olduqca sakit, lirik-axıcı xarakteri ilə tam başqa obrazlar aləmini açır. Mövzunun sol əlin partiyasında monodik tərzdə sol pedal üzərində uzadılaraq ifası boğuq və zəif eşidilən səsin solo nitqini xatırladır. Şurun intonasiyalarına əsaslanan mövzuda yuxarı yüksələn kvarta-kvinta sıçrayışlı intervalların üstün olması melodiyanın danışıq tərzini şərtləndirir.

Nümunə N3




Köməkçi mövzu da əsas mövzu kimi ekspozisiya daxilində bir neçə inkişaf dalğasına məruz qalır. Birsəsli təqdimatdan sonra mövzu ikinci dəfə ($a^1$) unison ifada səslənir. Üçüncü dəfə mövzunun ($a^2$) sol əlin partiyasında səlis, qırılmaz axıcı melodiyasına sağ əlin danışıq tipli qısa frazalarının qoşulması ona polifonik üslub cizgiləri verir. Üçüncü inkişaf dalğasının son xanələrində humayuna keçid obrazın dramatikləşməsini daha da dərinləşdirir və ona yeni, tutqun boya əlavə edir. Bu zaman şurun mayəsinin üst mediantası ("sol") humayunun mayəsinə ("sol") bərabərləşir.

Yeni lada keçid inkişaf fazasının daha da dərinləşməsi, dinamikanın artması xarakterizə olunur. Belə ki, müşayiətdə "mi"- humayunun mayə pərdəsindən yuxarı yüksələn səssırasını əks etdirən blokun ostinat təkrarlanan fonu üzərində ladın intonasiya komplekslərindən ibarət ifadəli frazalarının çıxış etməsi kulminasiyaya doğru inkişafı təmin edir. Artan dinamika mövzunu dördüncü ($a^3$) inkişaf mərhələsinə və əsas tonallığına çatdırır. Bu zaman artıq mövzu çox yığcam və konkret şəkildə təqdim olunaraq bütün ekspozisiyanı tamamlayır.

İşləmə bölməsi əsas mövzunun yeni tonal səviyyədə çıxışı ilə başlayır və onun intonasiya-motiv inkişaf metoduna əsaslanır. Burada aramsız, güclü enerjiyə malik inkişaf axını virtuoz ifa ilə daha da effektiv səslənir. Kulminasiya predıktin başlaması ilə eyni vaxta təsadüf edir.

Es-moll tonallığının qayıdışı isə reprizanın başlandığını müəyyənləşdirir. Reprizada əsas və yeni keyfiyyət dəyişikliyi ilə çıxış edən köməkçi mövzular (es-moll, unison ifada) olduqca qısaldılmış, lakin çox inamlı və möhtəşəm səslənir.

Sonatanın ikinci hissəsi - ***(Andante rubato)-*** orta hissələr üçün səciyyəvi olan xüsusiyyətləri daşıyır. Lakin burada klassik üçhissəlilikdən fərqli olaraq bəstəkar mövzunun sərbəst intonasiyalı-işləmə tipli inkişafına üstünlük verir. Bu da hissənin lirik fəlsəfi sahəyə aid obrazlar dairəsinin muğam ənənələrinə uyğunluğu ilə şərtlənir.

Xarakter etibarilə, əhatə etdiyi obrazların musiqili məzmununa görə burada birinci hissənin köməkçi mövzusu ilə əlaqə özünü göstərir.Uyğunluq təkcə lirik obrazlar sferası ilə deyil, həm də ladintonasiya planında da (şur) müşahidə olunur.

İkinci hissədə daxili təzadlılıq da müşahidə olunur. Belə ki, burada mövzunun unison ifada verilən geniş oxucu əsaslı və bir qədər sərt xarakterli birinci mövzusuna qarşı daha zərif səslənən, arpeciolu fakturaya malik və kiçik frazalardan hörülmüş ikinci mövzunun qoyulması dialoq təəssüratı yaradır. Nümunə N 4








Əgər birinci mövzunun intonasiya məzmununda sıçrayışlı (kvarta-kvinta, seksta), artırılmış sekundalı intervalların üstünlüyü və ağır notlarla (yarım, çərək və səkkizliklərlə) aşağı registdə səslənməsi olduqca sərt və tutqun xarakter daşıyırsa, ikinci mövzunun yuxarı registrdə triol və septollarla arpeciolu ifası yüngül, həzin və şəffaf təəssürat oyadır. İnkişaf prosesində fakturanın mürəkkəbləşməsi, üçsətirli yazı texnikasının tətbiqi, demək olar ki, fortepianonun bütün registrlərinin əhatə edilməsini nəzərdə tutur ki, bu da ifaçıdan yüksək peşəkarlıq tələb edir. Bütün bunlar həm də sonatanın bu hissəsi üçün səciyyəvi olan tembr təzadlığı effektini yaratmağa imkan verir..

Bütövlükdə ikinci hissə bu iki mövzunun intonasiyalarının bir-birinə qovuşaraq inkişafı prinsipi üzrə qurularaq daxili dinamikliyi ilə seçilir və fasiləsiz olaraq üçüncü hissəyə qırılmadan, *attacca* ifa ilə keçir.

Üçüncü hissə (***Attacca sub Allegro***) - qətiyyətli, çevik və təşəbbüslü xarakteri ilə Birinci hissənin əsas mövzusunun obrazlarının xəttini yeni səviyyədə (Es-dur) davam etdirir. Burada əsasən lad-harmonik dili, ritmik zənginliyi, janr özünəməxsusluğu ilə seçilən iki mövzunun çıxış etməsi diqqəti cəlb edir. Mövzulardan birincisində aşıq musiqisinin janr xüsusiyyətləri özünü aydın göstərir. Burada aşıq havaları üçün xarakter olan əsas dayaq üzərində ritmik pulsasiyanın, sekundalı və kvarta-kvintalı səsbirləşmələrindən ibarət harmoniyanın müxtəlif müasir ifaçılıq priyomları ilə uzlaşması mürəkkəb və çoxcəhətli musiqi obrazın yaranmasına xidmət edir.

Nümunə N5







Belə parlaq və canlı mövzu üç dəfə variant şəkildə təkrar olunaraq hər dəfə yeni çalarlar əldə edir. Bunun ardınca gələn ikinci mövzu əvvəlkindən yeni lad boyasına (C-dur), həm də troritminə (8/8) görə fərqlənir. Burada artıq tonika orqan-punktu (“do”) üzərində boş- kvartalı akkordların ç




imunə N6




İkinci mövzu da birinci kimi bir neçə dəfə variant təkrar edildikdən sonra (qeyd edək ki, mövzunun üçüncü variant təkrarı zamanı onun Es-dur əsas tonallıqda verilməsi formanın qapanmasına doğru prosesin başlanmasını müəyyənləşdirir) dinamika daha da dərinləşərək inkişaf birinci mövzunun intonasiyaları əsasında davam etdirilir.

Bu hissənin formasını işləməsiz və güzgülü reprizası olan sonata forması kimi təyin etmək olar. Belə ki, ekspozisiyada əsas (Es-dur) və köməkçi (C-dur) partiyalar, reprizada isə eyni mövzular (hər ikisi Es-dur) yeni keyfiyyət səviyyəsində təqdim olunur. Xüsusilə, reprizada əsas mövzunun tamamilə dəyişilmiş şəkildə, onun intonasiyaları əsasında motiv-işləmə formasında çıxış etməsi obrazın sonadək inkişaflı xarakter daşıdığını bildirir.

Üçüncü hissənin bütün mövzuları milli məzmunla zəngindir və tamamilə özünəməxsus təfsiri ilə diqqəti cəlb edir. Burada bəstəkarın xalq musiqi sənətinə yaradıcı münasibəti, milli mənbədən peşəkarcasına bəhrələnməsi aydın ifadəsini tapır.

Sonatanın hissələrinin belə özünəməxsus təfsiri, silsilənin fərdi şərhi janrın müasir musiqi üçün səciyyəvi olan ümumi amillərin, həm də xalq improvizə sənətinin üslub cizgilərinin qarşılıqlı əlaqəsindən irəli gəlir.

**Nəticə**

Əvvəldə qeyd etdiyimiz kimi,Ceyhun Allahverdiyevin sonatasının musiqi dilində, şübhəsiz ki, Arif Məlikovun instrumental musiqisinin, xüsusilə də, onun fortepiano üçün yazdığı əsərlərinin – prelüdlərinin, “Ötəri anlar” silsiləsinin, “Təzadlar” pyesinin, iki royal üçün skertsosunun və başqalarının təsiri güclü olmuşdur. Bəstəkarın sonatasında Arif Məlikovun fortepiano əsərlərindən gələn musiqi dilinin intonasiya və harmonik təravəti, müasir musiqi elementləri (dissonans səslənmələr, sekundalı, kvarta-kvintalı səsbirləşmələri ilə hərəkət), uzaq registrlərin təzadlı qarşı qoyulması, ifaçılıq priyomları (arpeciolu dönmələr, çox vaxt xromatizmlərlə zəngin qammavari hərəkətlər), xalq musiqi mənbələrindən bacarıqla istifadə qabiliyyəti və s. yaradıcı surətdə mənimsənilmiş və fərdi həllini tapmışdır.

**Gultakin Gasimli**

**PIANO SONATA BY JEYHUN ALLAHVERDIYEV DEDICATED TO ARIF MALIKOV**

The article analyzes the stylistic features of the sonata for piano by Jeyhun Allahverdiev, an honored artist of the Republic of Azerbaijan, composer, pianist, and pedagogue. Since the work is dedicated to the composer’s favorite teacher Arif Malikov, the influence of the stylistic features of his works, especially chamber instrumental music, along with the means of musical expression reflecting

the image of the immortal artist (for example, Humayun scene) can be clearly heard. The analysis process determined the synthesis of the modern musical language with the national musical features while keeping the classical norms of the sonata (three-part structure).

**Keywords:** *sonata, genre, form, intonation, exposition, reprise.*

**Гюльтекин Гасымлы**

**ФОРТЕПИАННАЯ СОНАТА ДЖЕЙХУНА АЛЛАХВЕРДИЕВА ПОСВЯЩЕННАЯ АРИФУ МЕЛИКОВУ**

В статье анализируются стилевые особенности сонаты для фортепиано Заслуженного деятеля Азербайджана, композитора, пианиста, педагога Джейхуна Аллахвердиева. Так как произведение посвящено любимому педагогу автора Арифу Меликову, здесь наряду с музыкально-выразительными средствами, отражающие образ замечательного творца (например, лад хумаюн, как символ А.Меликова), можно услышать и влияние стилевых особенностей его камерно-инструментальной музыки.

В процессе анализа сонаты наряду с сохранением классических норм, определяется и синтез современного музыкального языка с национальными музыкальными особенностями. что характерно для музыки и Арифа Меликова.

**Ключевые слова:** *соната, жанр, форма, интонация, экспозиция, реприза.*

**ƏDƏBİYYAT**

1.Allahverdiyev Ceyhun. Fortepiano üçün seçilmiş əsərlərin ifaçılıq xüsusiyyətləri. Dərs vasaiti. Bakı, 2016, 143 s.
2.Seyidov T.Ə. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti:pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı, "Təhsil", 2016, 336 s.
3. Касимова С., Абдуллаева З. Музыкальная литература Азербайджана. Ч.2. – Баку, Наука и образование, 2010, 208 с.

***Üzeyir Hacıbəyli adına**
***Bakı Musiqi Akademiyasının Doktorantı***

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 22.02.2025**
**Son daxilolma tarixi:11.03.2025**